

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 140 (24.277)

5 avqust 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 30 qәpik


2023-cü il "Heydər Əliyev İli"dir

## Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanda hüquqi islahatların banisidir

**Ulu Öndər Heydər ƏLİYEV:** *Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin də əsasını təşkil edən qanunlardır. Ona görə bizim hamımızın üzərinə çox vəzifələr düşübdür. Amma hakimiyyətin hər qolu öz vəzifəsini yaxşı həyata keçirsə, deməli, bizim ümumi işimiz yaxşı olacaqdır.*

*Ölkəmizin məhkəmə-hüquq sisteminin demokratik prinsiplər əsasında bərqərar edilməsi də məhz Ulu Öndərin adı ilə bağlıdır. Ümummilli Liderin Azərbaycana rəhbərliyinin birinci mərhələsindən sonra məhkəmə-hüquq sistemində köklü dəyişikliklər baş vermişdir. Azərbaycan məhkəmə sistemi ciddi nailiyyətlər əldə etmişdir.*



Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas dayaqlarından biri məhkəmə sistemi sayılır. Hər bir demokratik dövlətdə insan hüquq və azadlıqlarının müdafiəsində təməl rolunu məhz məhkəmələr oynayır. Azad və şəffaf məhkəmə sistemi hər bir dövlətdə demokratik islahatların, hüquqi dövlət quruculuğunun ölçü meyarı sayılır.

Azərbaycan 1991-ci ilin oktyabrında öz dövlət müstəqilliyini bərpa etsə də, SSRİ-dən miras qalmış hüquq sistemi və qanunlar hüquqi və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Bütün bu xüsusatlar cəmiyyətin gələcək inkişafı üçün hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məhkəmə-hüquq islahatı nəticəsində keçmiş Sovetlər Birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuşdur.

Məhkəmə-hüquq islahatlarının aparılması nəticəsində milli qanunvericiliyimizin təkmilləşdirilməsi məqsədilə dünyanın inkişaf etmiş demokratik ölkələrinin müsbət təcrübəsindən istifadə edərək yeni normativ-hüquqi bazanın yaradılması üzrə ilkin hazırlıq mərhələsi 1995-2003-cü illərə təsadüf etdi.

1995-ci ilin iyul ayında Heydər Əliyevin sədrliyi ilə müstəqilliyə xidmət edəcək, insan hüquq və azadlıqlarının qorunmasını təmin edəcək Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi.

***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır",*** – deyən Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hazırlanmasında həm ölkəmizin tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Beləliklə, Ulu Öndərin rəhbərliyi altında hazırlanmış 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyətlərin bölünməsi prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının əsasını qoydu. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdir.

Konstitusiyanın qəbulu Azərbaycanda hüquqi islahatların aparılmasına zəmin yaratdı. Konstitusiyada demokratik cəmiyyətin qurulması, fəaliyyət göstərməsi və inkişafı üçün bütün müddəalar öz əksini tapdı. Bu inkişafın əsas komponentlərindən biri də qərəzsiz, ədalətli, aşkar və səmərəli ədalət mühakiməsinin həyata keçirilməsi məqsədilə məhkəmə-hüquq islahatlarının aparılması oldu. Hüquqi islahatların həyata keçirilməsi məqsədilə respublika Prezidentinin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə hüquqi islahatlar komissiyası yaradıldı, hüquqi dövlət quruculuğunda məhkəmə hakimiyyətinin rolu nəzərə alınmaqla 1 dekabr 1998-ci il tarixli Fərmanla dövlət başçısı yanında Məhkəmə-Hüquq Şurası təsis edildi.

Məhkəmə hüquq sistemi islahatının konsepsiyası aşağıdakı əsas məqsəd və vəzifələri müəyyən etmişdir. Hüquqi dövlət çərçivəsində məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinin təmin edilməsi, vətəndaşların məhkəməyə ədalətli araşdırma üçün müraciət etmək hüququnun təmin edilməsi, peşəkar hüquqi yardım almaq imkanı, məhkəmə qərarlarından şikayət vermək hüququnun həyata keçirilməsi və sair.

Bu dövrdə aparılmış məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuş, islahatlara uyğun olaraq yeni mütərəqqi qanunlar, o cümlədən "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və sair məcəllələr qəbul edilmişdir.

Azərbaycanın tarixində ilk olaraq 1998-ci ilin iyul ayında konstitusiya nəzarəti orqanı Konstitusiya Məhkəməsi yaradılmışdır.

"Məhkəmələr və hakimlər haqqında" Qanunda hakimlərin toxunulmazlığı, dəyişməzliyi, şəxsi təhlükəsizliyi, onların fəaliyyətinə müdaxilənin yolverilməzliyi, hakimlərin siyasətsizləşdirilməsi, onların müsabiqə yolu ilə seçilib təyin edilməsi, maddi və sosial təminatlarının nəzərdə tutulması tədbirləri vasitəsilə hüquqi dövlətə xas olan məhkəmə sistemi müstəqilliyinin əsas prinsiplərini müəyyən etmişdir.

Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədilə 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamışdır.

Məhkəmələrin müstəqilliyinin gücləndirilməsi tədbirləri çərçivəsində vakant hakim vəzifəsinə namizədlərin seçilməsi prosesini həyata keçirən yeni qurum – Hakimlərin Seçki Komitəsi yaradılmış, ilk dəfə olaraq hakim vəzifəsinə namizədlər üçün ilkin uzun müddətli tədris kursları təşkil edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu məhkəmə-hüquq islahatları bu gün də uğurla davam etdirilir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə aparılan, vətəndaşların hüquq və azadlıqlarının ədalət mühakiməsi yolu ilə qorunması prinsiplərinin inkişafına xidmət göstərən məhkəmə-hüquq islahatları Azərbaycanın bütün regionlarını əhatə etməkdədir.

Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında yerləşən məhkəmələrin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuşdur.

Qanunvericiliyə sonrakı dəyişikliklərlə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi ləğv edilərək onun əvəzinə Bakı, Gəncə, Lənkəran və Şəki Ağır Cinayətlər Məhkəməsi və habelə Yerli İqtisad məhkəmələrinin bazasında İnzibati İqtisadi məhkəmələr yaradılmışdır. Azərbaycan Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılmışdır.

2019-cu il 3 aprel tarixdə imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında Fərman bu sahədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir. Fərmanın əsas məqsədi müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirməklə onun keyfiyyətini və səmərəliliyini yüksəltmək, bütövlükdə, məhkəmə hakimiyyətinə ictimai etimadı, əlçatanlığı və fəaliyyətində şəffaflığı artırmaq olmuşdur. Məhkəmə sisteminin gələcək inkişafının strateji prioritetlərini müəyyən edən bu Fərman həm də müstəsna əhəmiyyətə malik "yol xəritəsi" olmaqla proqram xarakteri daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı ilə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədilə "Elektron Məhkəmə" İnformasiya sisteminin yaradılması qərara alınmış, 1 iyun 2020-ci il tarixli Fərmanla "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilmiş, bununla əlaqədar qanunvericilik bazasına müvafiq dəyişikliklər edilmişdir. Bununla da məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə insanlar məhkəməyə gəlmədən, elektron formada müraciət etmək imkanı əldə etmişlər.

Digər mühüm islahat isə "Mediasiya haqqında" Qanunun qəbul edilməsi, bununla da mülki xarakterli mübahisələrin məhkəmədənkənar həlli mexanizmlərinin yaradılmasıdır. Mübahisələrin məhkəməyəqədər həllinə zəmin yaradan mediator institutunun formalaşdırılması məhkəmə sisteminin iş yükünün azaldılması, ümumməhkəmələrə əlçatanlığın artırılması və bu kimi digər müsbət keyfiyyətlərlə yanaşı, konfliktlər zamanı hüquqların müdafiəsində vasitə seçiminə, yəni dövlət müdafiə vasitələrindən və ya daha adekvat həll yolundan istifadə üçün verilən əlavə təminatdır.

Bütün bu islahatlar ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

*Şübhəsiz ki, bundan sonra da ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı şəkildə təmin olunmasına, demokratik təsisatların daha da möhkəmlənməsinə səbəb olacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Penitensiar Xidmətdə Əməliyyat Şurasının iclası olub

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində 2023-cü ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı Əməliyyat Şurasının iclası keçirilib. İclasda 2023-cü ilin altı ayı ərzində görülmüş işlər və cəzaçəkmə müəssisələrində sabitliyin qorunub saxlanılması istiqamətində görülən tədbirlər, eyni zamanda əməliyyat-axtarış fəaliyyətinin gücləndirilməsi barədə görülən işlər müzakirə olunub.

Əməliyyat Şurasına sədrlik edən Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, III dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov ədliyyə sahəsinə, o cümlədən nazirliyin penitensiar sahəsinə göstərilən dövlət qayğısından bəhs edib, xidmətin gördüyü işlərə və həllivacib məsələlərə toxunub.



Xidmətdə və cəzaçəkmə müəssisələrində görülən işlərlə bağlı ədliyyə nazirinin müavini-Penitensiar Xidmətin rəisi, ədliyyə polkovniki Emin Kazımov məruzə ilə çıxış edib. Xidmət rəisi penitensiar müəssisələrdə islahetmə metodlarının səmərəliliyinin artırılması, məhkumların maddi məişət şəraitinin yaxşılaşdırılması və digər istiqamətlərdə görülən işlər barədə məlumat verib.

Sonra müəssisə rəisləri məruzə ətrafında çıxışlar ediblər.

Şura iclasına yekun vuran ədliyyə naziri xidmətdə qarşıya qoyulan vəzifələrin düzgün və vaxtında yerinə yetirilməsi istiqamətində tapşırıqlar verib. Bildirib ki, hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələrin qurulması işinin diqqətdə saxlanılması, məhkumların asudə vaxtlarından səmərəli istifadə olunması, məntəqə tipli cəzaçəkmə müəssisəsində daha çox məhkumun işlə təmin edilməsi və peşə kurslarının açılması nəzarətdə saxlanılması, əməliyyat sahəsində iş gücləndirilməlidir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

Turizm

# Zəngəzur dəhlizi – Naxçıvanda turizmin yeni mərhələsi

*Qədim Naxçıvan diyarı Şərqlə Qərbin qovşağında, tarixi ticarət yollarının üzərində yerləşdiyi üçün hələ orta əsrlərdə dünya ipək ticarətinin əsas mərkəzlərindən birinə çevrilmişdi. Həm İrandan Gürcüstan və Dağıstana gedən ticarət yolu üzərində yerləşməsi, həm də Naxçıvan tacirlərinin Avropanın böyük sənaye mərkəzləri ilə geniş əlaqələr qurması bölgənin hərtərəfli inkişafına səbəb olmuşdu.*



Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla bağlayan dəmir yolu xətti 1941-ci ildən fəaliyyət göstərirdi. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 1991-ci ildən bu dəmir yolu xətti fəaliyyətini məcburi şəkildə dayandırdı və bununla da Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə quru əlaqəsi tamamilə kəsildi. Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən və uzunluğu 638 kilometr olan yolun 44 kilometri Ermənistan üzərindən keçir və bu yol 30 il müddətində tam blokada şəraitində olub.

44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm qələbəsi Avrasiyanın geoiqtisadi xəritəsində yeni imkanlar yaratdı. Beynəlxalq nəqliyyat sisteminin yenidən qurulması bir çox Asiya ölkəsi üçün, eləcə də Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün çox əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının dəmir yolu nəqliyyatının bərpa edilməsinə dair razılaşdırmanın əldə olunması və bu regionu Azərbaycanın digər rayonları ilə əlaqələndirən yeni avtomobil yolunun çəkilməsinin planlaşdırılması qədim diyarın müasir inkişafında xüsusi əhəmiyyətə malik olacaqdır. Zəngəzur dəhlizi isə Naxçıvan Muxtar Respublikasının türk-İslam dünyasına açılan bir qapı kimi rolunu artıracaq. Bunun üçün yanaşı, Naxçıvana quru dəhlizin açılması, bütövlükdə, Azərbaycan iqtisadiyyatının, eləcə də turizmin inkişaf istiqamətində olduqca zəruri addımdır. Ölkəmizin coğrafi imkanları və turizm potensialının çatdırılması üçün həm işğaldan azad olunmuş torpaqların, həm də Naxçıvan ərazisinin tam formatlı şəkildə inteqrasiyasını təmin etmək üçün bu dəhliz böyük rola malikdir.

Zəngəzur dəhlizi Azərbaycanın Türkiyə vasitəsilə Avropaya, İran yolu ilə Asiyaya, Bakıdan keçməklə Rusiyaya doğru əlaqələrinin genişləndirilməsində böyük rol oynayacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü

Bununla da gələcəkdə regionda həm sosial-iqtisadi münasibətlər, həm də turizm əlaqələri daha da genişlənəcək. Naxçıvanla dəhlizin açılması, eyni zamanda Rusiyanın Türkiyə ilə, həmçinin Rusiyanın İranla faktiki olaraq Azərbaycan vasitəsilə əlaqələrinin qurulmasının mümkünlüyü deməkdir. Bu da, bütövlükdə, bölgədə turizmin intensiv şəkildə inkişaf etməsinə xidmət edən bir məsələdir. Bir sözlə, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvana Türkiyə və Rusiyadan gələn turistlərin sayı da artacaq.

Zəngəzur dəhlizi Türk dünyasına inteqrasiyada da mühüm rol oynayacaq. Türkiyənin Naxçıvan vasitəsilə Orta Asiyaya çıxışı isə qeyd-şərtsiz muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsini verəcək. Türkiyə və Orta Asiya iqtisadi əlaqələrinin ən əlverişli marşrutu üzərində olmaq Naxçıvanı turizm sahəsində daha ön sıralara daşıyacaq.

Nəqliyyat dəhlizi istər yük, istərsə də sərnişin daşıma sahəsində kifayət qədər vacib əhəmiyyətə malik olacaq. Paytaxtımızdan və digər ərazilərimizdən Naxçıvan Muxtar Respublikasına gediş-gəliş həm sərfəli olacaq, həm də qısa zaman çərçivəsində həyata keçiriləcək. Bununla da Naxçıvana gələn daxili turistlərin, eyni zamanda Naxçıvandan Bakıya və Azərbaycanın digər bölgələrinə turizm səfərlərinə çıxanların sayında artım olacaq.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda digər sahələr kimi turizmin inkişafı ilə də bağlı bir sıra prioritet məsələlər nəzərdə tutulub. Belə ki, Naxçıvan Muxtar Respublikasında sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi bu diyarı dünyanın maraq dairəsində olacaq bir turizm məkanına çevirəcəkdir.




Son illərdə Naxçıvan şəhəri İslam mədəniyyətinin, eləcə də Avropa Gənclər paytaxtı missiyalarını da şərəflə yerinə yetirmiş və bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Naxçıvan şəhərində nəhəng və möhtəşəm məscid kompleksinin tikintisi regionda dini-mənəvi dəyərlərin inkişaf etdirilməsinə öz töhfəsini verməkdədir. İkiminarəli, 15 günbəzli məsciddə eyni vaxtda 5 min nəfər ibadət edə bilər. “Qurani-Kərim”in “Əl-Kəhf” surəsində bəhs edilən Əshabi-kəhf ziyarətgahının da Naxçıvanda yerləşməsi dəhliz açıldıqdan sonra buranın dini turizm sahəsində mövqeyini artıracaq.

Müalicəvi əhəmiyyətinə görə digər duz şaxtalarından fərqlənən Duzdağ Fizioterapiya Mərkəzi unikal balneoloji ocağın tanıdılması və daha çox turist qəbul etməsi, eyni zamanda mineral sular muzeyi adlandırılan Naxçıvanda şəfaverici ehtiyatlardan istifadənin sürətlənməsi bölgənin müalicə turizmi məkanı kimi şöhrətini artıracaq.

Naxçıvanın zəngin tarixi irsini əks etdirən Əlincə qalası, Möminə xatın türbəsi, Gəmiqaya və digər abidələri artıq dünyanın bir çox ölkəsindən gələn turistlər tərəfindən müşahidə ediləcək.

Prezident cənab İlham Əliyev “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda keçirilən Şuşa Qlobal Media Forumunda demişdir: ***“Zəngəzur dəhlizi heç kim ləğv etməyib, bu layihə gündəlikdə qalmaqdadır və həyata keçirilməyənədək gündəlikdə qalacaq”.*** Nəticə olaraq Zəngəzur dəhlizinin açılması Naxçıvanda turizm sahəsinin inkişafında, sözün əsl mənasında, yeni mərhələnin başlanğıcı olacaqdır.

**Ülkər HƏSƏNZADƏ**
***Naxçıvan Dövlət Universiteti Bələdiyyə və turizm kafedrasının müəllimi***

---

# Vətən sevgisi ən böyük sərvətdir
## *Parağaçay qəsəbəsində bunu bir daha gördüm...*

*Ordubad rayonunun ucqar dağ yaşayış məntəqələri muxtar respublikada mövcud belə ünvanlardan lap yüksəkliklərdə yerləşir. Təkcə iki fakta söykənərək bu qənaəti təsdiqləyə bilərik: Gəmiqaya və Göygölün yerləşdikləri yüksəklik coğrafi iqlimi ilə yanaşı, buranın zəngin təbiətində də özünü göstərir. Belə ünvanlara insanlar ilin yaz-payız fəsillərində öz istirahətlərini səmərəli keçirmək üçün üz tuturlar. Etiraf etməliyik ki, bu yerlərin təbii-coğrafi şəraitini öyrənmək, həmin ərazilərdəki torpaqlardan, təbiətin bəxşişi olan yeraltı sərvətlərdən səmərəli istifadə etmək məqsədilə sovet dönəmində müəyyən işlər görülsə də, enerji təminatı həll olunsa da, həmin yüksəkliklərə gediş-gəliş indi də bir qədər çətindir. Müstəqillik illərində isə rayonda qaz çəkilişi zamanı mövcud çətinliklərə baxmayaraq, həmin məsələ də öz həllini tapıb. Bu gün sözügedən ərazilərdəki hər bir evdə işıq da var, qaz da. Müasir informasiya texnologiyalarından istifadə etmək üçün də müəyyən tədbirlər reallaşdırılıb, bəzi ünvanlarda bu istiqamətdə işlər görülüb.*



Belə ünvanlar içərisində Parağaçay şəhərtipli qəsəbəsi də var. Top, Kərdab, Qaplanvurulan, Şırşır dağlarının ətəyinə sığınan bu yaşayış məntəqəsi sovet dönəmində qonaqlıqaralı bir qəsəbə olub. Qəsəbədəki filiz mədənində işləmək üçün o vaxt, hətta ölkəmizin digər rayonlarından da gəlib burada məskunlaşıblar. 1952-ci ildə fəaliyyətə başlayan mədəndə çalışanlar üçün qəsəbədə hərtərəfli şərait yaradılıb. Yaşayış məntəqəsini su ilə təmin etmək üçün Kərdab dağının üstündə göl tikilib. Belə ünvanlarda tikinti-inşaat işlərinin aparılmasının çətinliklərini görənlər həmin gölün necə başa gəlməsini yaxşı təsəvvür edə bilərlər. Ətrafdakı bulaqların suyundan qidalanan göldən həm Parağaçaya, həm də Ağdərə qəsəbəsinə (yeri gəlmişkən, onu da qeyd edək ki, Parağaçay qəsəbə inzibati ərazi dairəsinin tərkibində olan Ağdərə qəsəbəsində 3 ailə yaşayır; burada Zəngəzur Milli Parkının Ağdərə qəsəbə İdarəetmə və informasiya mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qar uçqunu stansiyası fəaliyyət göstərir. 1992-ci ilə qədər isə Rusiya Federasiyası Elmlər Akademiyasının Baş Astrofizika Rəsədxanası – Pulkovo Rəsədxanası fəaliyyət göstərib) su çəkilib. Həmin su indi də qəsəbədəki həyətlərə axır; təmizliyinə, sərinliyinə söz ola bilməz:

*Bumbuz bulaqlarda don vurar, əgər*
*Əlini bir anlıq saxlasan suda.*
*Bir udum su içsən bulaq gözündən*
*Dil açar ürək də, yatmış duyğu da.*
*(Xanəli Kərimli)*

...71 yaşlı qəsəbə sakini, 1969-cu ildən burada yaşayan ***Sərxan Hüseynov*** bu qədim yurd yerinin tarixini yaxşı bilir:

– Yaxınlıqdakı Tivi kəndində doğulmuşam. 17 yaşımda buraya işləməyə gəldim. Bir qədər sonra ordu sıralarına çağırıldım. Hərbi xidmətimi başa vurduqdan sonra yenə qəsəbəyə qayıdaraq sürücü kimi ta təqaüdə çıxana qədər mədəndə işlədim. Burada ailə qurdum...

1969-cu ili Ulu Öndərimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyə başladığı il kimi



Sərxan Hüseynova da xatırlatdım. O dedi: – 1969-cu ilə qədər o dövrü görənlər, yaşayanlar Azərbaycanın hansı səviyyədə olduğunu daha yaxşı bilirdilər. Və mən burada işə başlayarkən gənc də olsam, hiss edirdim ki, mədəndə işlərin gedişi ilə maraqlanmaq üçün mədənə gəlib-gedənlərin sayı azalmaq bilmir. Kiçik bir çatışmazlığı belə yerindəcə həll edirdilər. O vaxt burada dövlət tərəfindən 50-dən artıq ev salındı. Hər biri ikimərtəbəli olan evlərin həyətinə su çəkildi, bu evlərdə yaşayanlar torpaq sahəsi ilə təmin edildilər. Qəsəbədə məktəb, iki mağaza tikildi. Digər obyektlər istifadəyə verildi. Mədəndə çalışanlar yaxşı əməkhaqqı ilə təmin olunmuşdular. Bayramlarda, əlamətdar günlərdə mükafatlar verilirdi, həmin günlərdə fəhlələr üçün konsert təşkil edilirdi. Qəsəbəyə paytaxt Bakı şəhərindən müğənnilər gəlirdi. Buradan çıxarılan filiz isə müəyyən olunmuş yerlərə göndərilirdi. Həyat öz axarı ilə davam edirdi. Ölkəmizin müxtəlif bölgələrindən bura üz tutmuş insanlar bir ailə kimi yaşayır, qız verib, qız alırdılar. Burada neçə belə ailə qurulmasının, toy çalınmasının şahidi olmuşam. Bəzən nəvələrimə o günlərdən söhbət edirəm. İnanmırlar... Parağaçay qəsəbəsinin şadyanalıqla keçən günləri 1988-ci ilə kimi davam etdi.

Həmin il ölkəmizdə başlanan hadisələr Parağaçay məntəqəsindən də yan keçmədi, hətta qəsəbəni iflic vəziyyətə saldı. Köçən köçdü, mədən öz fəaliyyətini dayandırdı. Evlərdən gələn səs-səmir kəsildi, o evlərdə yanan işıqlar azalmağa başladı. Bu acınacaqlı vəziyyət bir neçə il davam etdi. Yalnız Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə bu qəsəbənin də, necə deyərlər, üzünə gün doğdu. Hazırda burada daimi qeydiyyatda olan 7 ailə yaşayır.

Parağaçay qəsəbənin bələdiyyə sədri ***Asif İbrahimov***la Sərxan kişi yaxın qonşudurlar. Burada olduğumuzu eşidib bizimlə görüşmək üçün Sərxan Hüseynovun həyətinə gəlib. O da qəsəbənin köhnə sakinlərindəndir. Burada nə ilə məşğul olduqlarını, gün-güzəranlarını soruşuram. Deyir ki, heyvandarlıq, maldarlıq, arıçılıq, nisbətən də əkinçiliklə məşğuldurlar. Qəsəbə sa-



kinlərinin öhdəsində 500 baş xırdabuynuzlu, 30 baş iribuynuzlu heyvan var. Heyvanlar obalara qaldırılıb. Qəsəbə adamları növbə ilə obalarda olurlar.

Gözüm Sərxan Hüseynovun həyətinin aşağısında olan meyvə ağaclarına sataşır. Ərik və gilas hələ təzə-təzə yetişməkdədir. Təsərrüfat adamı həm də cəviz tingliyi salıb. Deyir ki, Parağaçayın təmiz suyu və havası burada keyfiyyətli cəviz, eləcə də digər məhsulların yetişdirilməsinə imkan verib. Bütün həyətlərdə bu imkanlardan istifadə olunur. Onunla həyətyanı təsərrüfatını gəzirik. Sərxan Hüseynov burada nələr əkib-becərmir? Süfrəmiz üçün lazım olan bütün tərəvəzlər, lobya, pomidor, xiyar, kartof...

Deyir ki, buna imkan varsa, niyə bazara getməliyəm. Özüm də təqaüdçü adam. Günün nə vaxt batdığın hiss etmirik. Yay mövsümündə nəvələrim də gəlirlər. İstəyirəm ki, onlar da doğma yurd yerinin, onun torpağının, suyunun qədrini bilsinlər:

*Sənin baban tapdı hər ucalığı*
*Qızıldan qiymətli qara torpaqda.*
*İnsana şərəfdir, şöhrətdir, şandır*
*Əkdiyi ağac da, adi yarpaq da.*
*(Xanəli Kərimli)*

Bu an evin düz yanında bir “Niva” dayanır. Öyrənirəm ki, Vüqar Hüseynov Sərxan kişinin kiçik övladıdır, burada yaşayır, qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndənin müavinidir. İxtisasca hüquqşünasdır. O anda fikrimdən keçir ki, torpağa bağlılıq, yurda sevgi qanla gəlməlidir. Belə olmasa idi, Vüqar da indi hansı bölgədəsə hüquq-mühafizə orqanında özünə iş tapardı...

*Qorunub həmişə Yer kürəsində,*
*Yaşayır hər kəsin öz nəfəsində.*
*Ürəyin məhəbbət xəritəsində*
*Ən böyük dövlətdir Vətən sevgisi.*
*(Muxtar Qasımzadə)*

Qəsəbədə daha kimlərin yaşaması ilə maraqlanıram. Daha bir nəfəri səsləyirlər. Lap yaxınlıqda yaşayan Qurban Əzizəliyev də gəlir. O da əslən tivilidir. Ondan nə üçün Tividə deyil, məhz Parağaçay qəsəbəsində yaşamağa üstünlük verdiyini soruşuram. Öyrənirəm ki, atası Pərviz Əzizəliyev uzun illər buradakı mədəndə işləyib, burada ailə qurub. Bir neçə ildir ki, dünyasını dəyişib. Qurban da Parağaçaya öyrəşib, anası ilə qəsəbədə yaşayır. Mal-heyvan saxlayır, arıçılıqla məşğul olur. Yaxşı da qazanc əldə edir. İnanır ki, dövlətimizin ucqar yaşayış məntəqələrinə son illərində göstərdiyi qayğı Parağaçaydan köçüb gedənləri yenidən buraya qaytaracaq. Bu qəsəbə də bu gün ölkəmizin digər ucqar yaşayış məntəqələri kimi öz əvvəlki həyatını yenidən yaşayacaq.

Geri qayıtmaq vaxtı çatıb. Möhtəşəmlik mücəssəməsi olan dağların ətəyində yerləşmiş Parağaçay qəsəbəsinin, necə deyərlər, iki cüt, bir tək sakinləri ilə ayrılıram. Ürəyimdən misralar keçir:

*Vurul bu torpağa min bir baxışla,*
*Müqəddəs duyğunla qəlbi naxışla.*
*Vətəndaş olursan, vətəndaşlığa*
*Sənə zamanətdir Vətən sevgisi.*
*(Muxtar Qasımzadə)*

✍ **Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Sahibkarlığın dəstəklənməsində yeni mərhələlə

*Bazar mexanizminin hərəkətverici qüvvəsi hesab edilən sahibkarlıq fəaliyyəti ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasında, hökumətin qarşıya qoyduğu strateji məqsədlərin uğurla reallaşdırılmasında mühüm rol oynayır. Milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirən dövlətimiz bu reallığı düzgün dəyərləndirməklə əhalinin fəaliyyətinə hərtərəfli imkanların yaradılması, iqtisadi mühitin liberallaşdırılması yolu ilə əlverişli biznes və investisiya mühitinin formalaşdırılması üçün zəruri tədbirləri həyata keçirir.*



KOBİA
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan iqtisadi rayonunun inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi strategiyanın mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir. İcrası uğurla həyata keçirilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması, məşğulluq imkanlarının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, ətraf mühitin mühafizəsinin təmin olunması ilə yanaşı, sahibkarların fəaliyyəti üçün də geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi muxtar respublikada iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası vasitəsilə həyata keçirilməkdədir. Hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi ilə özəl sektorun inkişafına nail olunur. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin inkişaf etdirilməsi və dövlət xidmətlərinin təşkili edilməsi 2023-2027-ci illərdə “KOB dostu” ofislərinin yaradılması da yer alır. Elə bu səbəbdən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) struktur bölmələri fəaliyyətə başlayıb.

Mövzumuzla bağlı Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən geniş məlumat öyrəndik. KOBİA-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüsalə Quliyeva bildirdi ki, Naxçıvan Muxtar Respublikasında mikro, kiçik və orta biznesin təşviqi və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi prioritet məsələlərdəndir. Bu məqsədlə bölgənin mövcud resursları, sosial-iqtisadi potensialı və digər imkanları nəzərə alınmaqla KOBİA tərəfindən də Agentliyin mövcud tədbirlərindən istifadə olunmaqla biznes mühitinin və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə dəstək göstəriləcək.

Bölgədə iqtisadi canlanmanın, yeni KOB subyektlərinin yaradılmasının və mövcud sahibkarlıq fəaliyyətinin genişləndirilməsinin təşviqi üçün sahibkarlara, biznesə başlamaq istəyənlərə təlim və məsləhət xidmətlərinin göstərilməsinin davam etdirilməsi, startap layihələrin dəstəklənməsi, yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlərin görülməsi, sahibkarların istehsal etdikləri məhsulların yerli və xarici sərgilərə çıxışına dəstəyin göstərilməsi və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu tədbirlərin sistemli və operativ görülməsi üçün cari ilin aprel ayından etibarən Naxçıvan Muxtar Respublikasında KOBİA-nın bir sıra struktur bölmələri fəaliyyətə başlayıb. Bu struktur bölmələr arasında kiçik və orta biznesin dostunu (KOB dostu) xüsusilə qeyd etmək olar. Hazırda Naxçıvan Muxtar Respublikasında da KOB dostları fəaliyyət göstərir. KOB dostları Naxçıvan Muxtar Respublikasında yeni KOB-ların yaranmasına və mövcud biznesin inkişafına, sahibkarların investisiya təşəbbüslərinin reallaşdırılmasına, maraqlarının müdafiəsinə mövcud dövlət dəstəyi mexanizmləri, o cümlədən Agentlik tərəfindən təmin edilən dəstək və xidmətlər çərçivəsində dəstək göstərir, onları sahibkarlıq fəaliyyəti ilə bağlı yeniliklər barədə maarifləndirir. Qısaca desək, Agentlik KOB dostları vasitəsilə mikro, kiçik və orta biznesin yaradılmasından başlayaraq sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə qədər olan bütün mərhələlərdə KOB-lara dəstək olur, bu sahədə dövlət qurumları ilə sahibkarlar arasında körpü rolunu oynayır.

KOBİA-nın struktur bölməsi olan Naxçıvan KOB İnkişaf Mərkəzi (Naxçıvan KOBİM) də 2023-cü ilin aprel ayından etibarən mikro, kiçik və orta sahibkarların xidmətindədir. Naxçıvan KOBİM-in başlıca məqsədi mövcud KOB subyektlərinin və biznesə başlamaq istəyənlərin sahibkarlıqla bağlı bilik və bacarıqlarını artırmaq, biznes fəaliyyəti ilə bağlı zəruri istiqamətlərdə məlumatlandırmaqdır. Bu məqsədlə digər KOBİM-lərdə olduğu kimi, Naxçıvan KOBİM tərəfindən də KOB-ların ehtiyaclarına uyğun biznes təlimlər təşkil olunur, praktiki məsləhət xidmətləri göstərilir.

Təlim və məsləhət xidmətləri biznes üçün zəruri istiqamətlərdə tətbiqi səriştələrin aşılanmasına yönəlmiş tədris proqramına əsasən həyata keçirilir. Təlim və məsləhət xidmətləri təcrübəli və peşəkar ekspertlər tərəfindən fərdi və qrup halında göstərilir. Təlim xidmətləri biznesə başla, soft skils (yumşaq bacarıqlar), layihə idarəetməsi, maliyyənin idarə olunması, korporativ hüquq, satış, marketinq, rəqəmsal bacarıqlar, “Yaşıl iqtisadiyyat” və sair kimi istiqamətləri əhatə edir. Məsləhət xidmətləri isə satış kanallarına çıxışa dəstək, marketinq, biznes planlaşdırılması, mühasibatlıq xidmətləri, hüquqi məsələlər və digər sahələri əhatə edir. Həmçinin KOB-lar biznes-planın hazırlanmasına dəstək, KOB-ların şəbəkələşməsi üçün də Naxçıvan KOBİM-ə müraciət edə bilərlər. Naxçıvan KOBİM fəaliyyət göstərdiyi şəhərlə yanaşı, ətraf şəhər və rayonlara da xidmət edir. Naxçıvan KOBİM tərəfindən göstərilən bütün xidmətlər ödənişsizdir.

KOB-ların biznes sahəsi üzrə bilik və bacarıqlarının artırılması üçün digər dəstək mexanizmlərindən bəhs edən Vüsalə Quliyeva deyir ki, KOBİA KOB-ların bilik və bacarıqlarının artırılması və məlumatlı təlim platforması və beynəlxalq ixtisasartırma proqramı vasitəsilə dəstək olur. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən KOB subyektləri də bu dəstək mexanizmlərindən faydalana bilərlər.

Vüsalə xanım qeyd etdi ki, videotəlim platforması Agentlik tərəfindən KOB subyektlərinin, sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlərin və startapların biznes sahəsində biliklərinin və məlumatlılığının artırılması, təlim ehtiyaclarının qarşılanması məqsədilə yaradılıb. Bu platformada biznesə başlamaq, yumşaq bacarıqlar (soft skills), korporativ-hüquq, layihə idarəetməsi, maliyyə, satış, marketinq, turizm və ixrac proseslərinin təşkili istiqamətləri üzrə 180 təlim videosu, hər bir mövzu üzrə təlim materialları və özünüqiymətləndirmə testləri yerləşdirilib. Platformadan istifadə ödənişsizdir. Biznes sahəsində biliklərini artırmaq istəyən KOB-lar və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər *www.kobim.az* saytının “Videotəlim platforması” bölməsində qeydiyyatdan keçməklə videomateriallardan faydalana bilərlər.

Azərbaycan sahibkarlarının və menecerlərinin biznes sahəsində beynəlxalq təcrübəyə yiyələnməsi, bilik və bacarıqlarının artırılması, Almaniyanın qabaqcıl şirkətləri ilə birbaşa işgüzar əlaqələrinin qurulması məqsədilə 2009-cu ildən etibarən “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan Birgə Proqramı” həyata keçirilir. Proqrama qoşulan sahibkar və menecerlər 2 həftə müddətində Almaniyanın təlim mərkəzlərində keçirilən biznes təlimlərində iştirak edir, eyni zamanda Almaniya şirkətlərində təcrübə keçərək şirkətlərlə işgüzar əlaqələrini genişləndirirlər. Qeyd edək ki, proqram ingilis dilində fəaliyyət göstərir. İştirakçıların seçimi Almaniya mütəxəssisləri tərəfindən müsabiqə əsasında həyata keçirilir. İştirakçıların proqram çərçivəsində olan xərcləri (nəqliyyat xərcləri istisna olmaqla) Almaniya tərəfindən qarşılanır. Proqramı uğurla başa vuran sahibkar və menecerlərə beynəlxalq sertifikatlar verilir. Proqramın əlaqələndiricisi Azərbaycan tərəfindən KOBİA, Almaniya tərəfindən isə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətidir (GİZ).

Sirr deyil ki, azad sahibkarlıq yalnız o ölkələrdə uğurla inkişaf edir ki, orada sahibkarlara dövlət tərəfindən qayğı və diqqət var. Bu gün bu qayğını bütün sahibkarlar hiss edir. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***“Gələcəkdə də Azərbaycanda sahibkarlığın inkşafına böyük dəstək göstəriləcək, sağlam rəqabət təmin olunacaq. Azad sahibkarlığın inkişafı, onların maneələrlə üzləşməmələri üçün dövlətimiz üzərinə düşən məsələləri həll edir. Eyni zamanda sahibkarlar buna adekvat olaraq özəl sektorda üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər”.***

✍ **Gülcamal TAHİROVA**

## Liseyə qəbul olan şagirdlər və onların valideynləri ilə görüş olub

Görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev ölkəmizdə elm və təhsilə göstərilən diqqət və qayğıdan danışıb, Prezident cənab İlham Əliyevin təhsil sahəsində imzaladığı sərəncamlarla Azərbaycan təhsilində həyata keçirilən islahatları diqqətə çatdırıb. Bildirilib ki, Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyi Azərbaycanın ali təhsil müəssisələri arasında özünəməxsus yer tutan Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi də ali təhsil ocağına göstərilən yüksək diqqət və etimadın bariz nümunəsidir.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər ərzində təsdiq olunan sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramında universitetin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsinin icra olunması da nəzərdə tutulub. Layihənin icrası istiqamətində məhz Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin bazasında yaradılacaq Beynəlxalq Məktəb gələcəkdə ali təhsil müəssisəsi ilə digər ölkələrin ali məktəbləri arasında əməkdaşlıqların gücləndirilməsi, birgə proqramların təşkili olunması, həmçinin universitetlərdə yeni məzmunlu proqramların tətbiqi üzrə layihələrin həyata keçirilməsini də mümkün edəcək.

Rektor qeyd edib ki, liseyin özəlliyi onun internatlı olmasındadır. Liseydə yüksək təhsillə yanaşı, şagirdlərin milli dəyərlərə sadiqlik və vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verilir. Bu da onların gələcəkdə ölkəmizin hüdudlarından kənarda Azərbaycan elmini layiqincə təmsil etmələrinə şərait yaradacaq.

Görüşdə liseyin direktoru Nazim Rəhimov qeyd edib ki, keçirilən imtahanda ümumtəhsil müəssisələrinin 7-ci sinfini bitirən 406 şagird iştirak edib. Nəticələrə əsasən ən yüksək göstəriciyə sahib olan, ümumilikdə, 62 namizəd liseyə qəbul olub. Nazim Rəhimov liseyin maddi-texniki, müəllim kollektivi və burada təhsil alan şagirdlərin hüquq və öhdəlikləri barədə də geniş məlumat verib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, şagirdlər və valideynlər liseylə əyani tanış olublar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Ötən ay ərzində 642 texniki sənəd hazırlanıb

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən Şahbuz rayonunun Daylaqlı kəndində keçirilən tədbirdə iştirakçılara əkin atlaslarından istifadə edilməklə məhsuldarlığın artırılmasına nail olunması, torpaqlardan səmərəli istifadə yolları və onların mühafizəsi qaydaları haqqında məlumat verilib.

Babək rayon inzibati ərazi vahidini əhatə edən bələdiyyələr üzrə işlər davam etdirilib. Rayonun Xəlilli kəndində həyətyanı torpaq sahələrinin sərhədlərinin dəqiqləşdirilməsi məqsədilə planaalma işləri başa çatdırılıb, kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 530 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib.

Ötən ay 990 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 642 texniki sənəd hazırlanıb, yeni yaranmış 55 daşınmaz əmlak obyektinə ünvan verilib, 78 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil edilən 125 müraciət icra olunub.

6 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, Şərur rayonunun Kərimbəyli və Mahmudkənd, Babək rayonunun Payız və Didivar, Ordubad rayonunun Üstüpü və Qoruqlar, Culfa rayonunun Kırna, Şahbuz rayonunun Sələsüz kəndlərində vətəndaşlara səyyari xidmət göstərilib, qəbul edilmiş müraciətlər əsasında mülkiyyət sənədləri hazırlanaraq vətəndaşlara təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## “Naxçıvan” Universitetinin beynəlxalq əlaqələri yeni və daha nəticəyönümlü səviyyəyə keçir

“Naxçıvan” Universitetinin Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektoru Rza Məmmədov və İqtisadiyyat fakültəsinin dekanı Ceyhun Mahmudov əməkdaşlıq imkanlarının müzakirəsi və əldə edilmiş təcrübələrin bölüşülməsi üçün Türkiyə Respublikasının Qars şəhərində fəaliyyət göstərən Qafqaz Universitetinə ezam olunublar.



2-4 avqust 2023-cü il tarixləri arasında ezamiyyədə olan heyət Qafqaz Universitetinin rektoru, professor Hüsnü Kapu, prorektorlardan professor Engin Kılıç və professor Selçuk Ural, Xarici əlaqələr şöbəsinin müdiri, professor Hacalı Necefoğlu, İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, professor Erkan Tokucu və heyəti, Mühəndislik-memarlıq fakültəsinin dekanı, professor Fikret Akdeniz və heyəti ilə görüşlər keçirmiş, birgə fəaliyyət istiqamətləri üzrə müzakirə etmişdir.

Heyət Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapuya “Naxçıvan” Universitetinin rektoru Anar Kazımovun salamını çatdırmış və universitetin müəyyən etdiyi inkişaf strategiyası haqqında məlumat vermişdir.

Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektor Rza Məmmədov və İqtisadiyyat fakültəsinin dekanı Ceyhun Mahmudov Qars Qafqaz Universitetinin idarə heyəti ilə təhsilin yeni standartlar əsasında birgə təşkili və bu çərçivədə tələbə-müəllim mübadiləsinin genişləndirilməsi, hər iki universitetdə tətbiq olunan mövcud təcrübələrin öyrənilməsi və bölüşülməsi, Qars Qafqaz Universitetinin təcrübəsi əsasında laboratoriya yönümlü fənlərin tətbiqi, bakalavr və magistratura pilləsində ikili diplom imkanları, elmi dərəcəli kadrların yetişdirilməsi perspektivləri və bu aspektdə görüləcək işlər haqqında danışıqlar aparmışlar.

Danışıqların davamı olaraq “Naxçıvan” Universitetinin heyəti Qars Qafqaz Universitetinin İqtisadiyyat və idarəetmə, Mühəndislik-memarlıq fakültələrinin maddi-texniki bazası ilə tanış olmuşdur. Aparılan danışıqların reallaşdırılması çərçivəsində Qars Qafqaz Universitetinin rəhbərliyi “Naxçıvan” Universitetinə dəvət edilmişdir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

# Diqqət, qarşıda işıqfor var!!!

*Ömrümüz çox zaman yollarda keçir. Bağçaya, məktəbə, universitetə, işə və səyahətə gedərkən bizi sevdiklərimiz uğurlayıb sağ-salamat qayıtmağımızı gözləyirlər. Təəssüflər olsun ki, bəzi vaxtlar bu yollar bizi mənzilə çatdırmır. Məcazi mənada desək, yolumuzu qırmızı işıq kəsir. Qırmızı işıqdan söz düşmüşkən, qeyd edək ki, 5 avqustun İşıqfor Günü kimi tarixə düşməsindən artıq 109 il ötür. İşıqfor 1868-ci ildə ilk dəfə Londonda yol hərəkətini tənzimləmək üçün ixtiraçı Jon Pik Nayt tərəfindən İşıqfor quraşdırılsa da, 1925-ci ildən bu günə qədər quraşdırılmış işıqfor sxemini – "işıqforun atası" hesab edilən Garret Morgan patentləşdirib.*

İşıqforlar yol kəsişmələrində və piyada keçidlərində yerləşən siqnal cihazı olaraq gündəlik həyatımızın bir parçasına çevrilib. İşıqforlar və dayanma nişanları insanlara və avtomobillərə nə vaxt dayanmalı, nə vaxt hərəkətə davam etməli olduqlarını bildirir.

İllər keçdikcə üçrəngli işıqforlar daim inkişaf edərək daha mürəkkəb, daha rahat və daha ağıllı olur. Bu gün təkcə avtomobillər üçün deyil, həm də piyadalar, tramvaylar, velosipedçilər və hətta atlar üçün işıqforlar var. Qırmızı siqnalda sağa dönməyə imkan verən oxlar, eləcə də səs siqnalları var ki, görmə qabiliyyəti zəif olan insanlar yolun hərəkət hissəsini təhlükəsiz keçə bilsinlər. Ola bilsin ki, kimsə işıqforların bir növ məhdudiyyət olduğunu fikirləşir... Amma düşünsək ki, onlar günümüzdə nə qədər insanın həyatını xilas edib, onda yanlarından təşəkkür etməmiş keçmərik.



Bizi bu mövzuya müraciət etməyə vadar edən səbəb də məhz son zamanlar yol hərəkəti qaydalarına əməl edilməməsi üzündən muxtar respublikada yol-nəqliyyat hadisələrinin artmasıdır. Əsas səbəblərdən biri isə müşahidələrə əsasən demək olar ki, sürücülərin və piyadaların tələskənliyidir. Yol hərəkətinin



tənzimlənməsi ilə bağlı müsahibimiz ***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polis İdarəsinin əməkdaşı, polis kapitanı Ayaz İsmayılov***dur.

Ayaz İsmayılovun sözlərinə görə, Dövlət Yol Polisinin əsas vəzifəsi yol hərəkəti təhlükəsizliyini təmin etməkdir. 24 saat fasiləsiz fəaliyyət göstərən DYP-nin əsas məqsədi yol-nəqliyyat hadisələrinin qarşısını almağa, piyada keçidlərinə nəzarət etməyə, sürücüləri və piyadaları yol hərəkəti qaydalarını pozmamağa təşviq edir.

Bu gün DYP-nin ən diqqət etdiyi yer piyada keçidləridir. Nizamlanan və nizamlanmayan piyada keçidləri var. Nizamlanan piyada keçidlərində hərəkətin nizamlanması işıqfor vasitəsilə həyata keçirilir. Piyadalar bəzən işıqfora fikir vermədən, piyada keçidi olmayan yerlərdən və etinasızca mobil telefon və yaxud qulaqcıqlarla yolu keçmək istərkən yol-nəqliyyat hadisələri qeydə alınır. "Yol hərəkəti haqqında" qanunun 40-cı maddəsində qeyd olunur ki, piyada nizamlanmayan piyada keçidinə girməzdən əvvəl yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin məsafəsini, onun hərəkət sürətini dəyərləndirməli və yolu keçməyin onun üçün təhlükəsiz olduğunu yəqin etdikdən sonra piyada keçidinə daxil olmalıdır. Bunun üçün də DYP əməkdaşları maarifləndirici tədbirlərə geniş yer verir, ictimaiyyət arasında bu kimi görüşlər keçirərək vətəndaşları və sürücüləri yol hərəkəti qaydalarına əməl etməyə çağırır. Həmçinin DİN-in yol patrul xidməti əməkdaşları da piyada keçidindən düzgün istifadə etməyən piyadalara xəbərdarlıq edir, piyada keçidlərindən istifadə etməyən piyadalar İnzibati Xətalar Məcəlləsinin 338-ci maddəsinə görə 20 manat məbləğində cərimə olunurlar. Lakin məqsəd piyada və sürücüləri cərimə ilə qorxutmaq yox, yol-nəqliyyat hadisələrinin qarşısını almaqdır. Son zamanlar müşahidə edilir ki, piyada keçidlərində piyadaların vurulması həm piyadaların, həm də sürücülərin məsuliyyətsizliyindən irəli gəlir.

"İşıqforun tələbi nədir?" sualımıza cavab olaraq həmsöhbətim bildirdi ki, "Yol hərəkəti haqqında" qanunda, işıqforun yaşıl işığı yanan zaman digər istiqamətdən gələn nəqliyyat vasitələrinin, həmçinin piyadaların hərəkətini başa çatdırmasına şərait yaradılması öz əksini tapıb. Bu o demək deyil ki, yaşıl işıq yandı, sürücü dərhal hərəkətə başlaya bilər. Bəzən sürücülər işıqforun yaşıl və yaxud qırmızı işığının sönməsinə 1-2 saniyə qalmış sürəti azaltmaq yerinə bir az da artırırlar ki, yolayrıcını tez keçələr. Bütün bu tələskənliklər isə yol-nəqliyyat hadisələrinin baş verməsinə gətirib çıxaran amillərdir.

Bu da vurğulanmalıdır ki, piyada keçidində sürücülərin məsuliyyətsizliyi hər an qəza vəziyyəti yarada bilər. Sürücü bu peşəyə yiyələnmək üçün müəyyən prosedurlardan keçir, sürücülük məktəbi oxuyur, DYP-də imtahan verib sürücülük vəsiqəsi aldıqdan sonra sürücü kimi fəaliyyət göstərməsinə şərait yaradılır. Lakin bunu piyadaya tədbiq etmək qeyri-mümkündür. Yaxşı bilirik ki, Naxçıvan şəhərində əksər məktəblər yol kənarında yerləşir. Piyadanın küçə və yollarda hərəkətinə heç cür qadağa qoya bilmədiyimiz üçün bütün məsuliyyət sürücülərin üzərinə düşür. Bunun üçün də sürücülər daha təmkinli, piyadalarla münasibətdə daha diqqətli olmalı, qarşısına qəfil çıxan piyada ilə məsafəsini nizamlamağı bacarmalıdır.

Ayaz İsmayılovun sözlərinə görə, çox müşahidə etdiyimiz hallardan biri də odur ki, sürücülər işıqforun xəbərdaredici sarı işığının yanıb-sönməsi zamanı "Stop!" xəttinin qarşısında dayanmaq əvəzinə sürətini bir az da artırır ki, həmin yolayrıcını tez keçsin. Bu zaman nəzərə alsa ki, digər istiqamətdən də gələn sürücü də bir az diqqətsizlik edib işıqforu tez keçməyə çalışsa, bu hal avtomobillərin qəza törətməsi ilə nəticələnəcək.

Təhlükəsizlik kəmərindən istifadə ilə bağlı son vaxtlar aparılan maarifləndirici tədbirlər öz bəhrələrini verməkdədir. "Yol hərəkəti haqqında" qanunda deyilir ki, avtomobil hərəkətə başladığı an hərəkət şəraitindən və yaxud hərəkət sürətindən asılı olmayaraq, sürücü kəmərini bağlamalıdır. Kəmər üç nöqtə prinsipinə əsaslanmalı, sürücü və yaxud sərnişinin həm sinə nahiyəsindən, həm qarın boşluğundan keçməlidir. Kəmər bağlamayan sürücülər İnzibati Xətalar Məcəlləsinin 327.1 maddəsinə görə 40 manat məbləğində cərimə olunurlar.

"Piyada keçidlərindən hansı məsafədə dayanma-durma qadağandır?" sualına aydınlıq gətirən Ayaz İsmayılov bildirdi ki, piyada keçidlərinin üzərində, yolayrıclarının kəsişmələrində, kəsişmə qovşaqlarından 5 metr məsafədə dayanma-durma qəti qadağandır. Bəzən sürücülər avtomobillərini piyada keçidlərinin üzərində və yaxud ona 5 metr az yaxınlıqda saxlayaraq piyadanın qarşısını kəsirlər. Düşünün ki, siz ikinci və yaxud üçüncü zolaqla hərəkət edirsiniz, sağdan birinci



zolaqda hər hansı yük avtomobili piyada keçidinin qarşısında avtomobilini saxlayıb ki, zolağın da eni 3 metrdir və bu zaman piyada və hərəkətdə olan avtomobil qarşılaşa bilər, yaxud ağır yol qəzasının baş verməsi qaçılmaz olar. Həmin sürücülər istər yol patrul xidməti inspektorları, istərsə də şəhər təhlükəsizlik kameraları vasitəsilə aşkarlanaraq dayanma-durma qaydalarını pozduqlarına əsasən "İnzibati Xətalar Məcəlləsi"nin 346.1 maddəsinə əsasən 20 manat məbləğində cərimə olunur.

"Avtomobillərarası distansiyası neçə metr olmalıdır?" sualımız müsahibimiz tərəfindən belə cavablandırıldı ki, distansiya eyni istiqamətdə və eyni zolaqda hərəkət edən iki avtomobil arasındakı məsafədir. Qanunda ara məsafəsi ilə bağlı konkret tələb yoxdur. Yol hərəkəti haqqında qanunun 50-ci maddəsinə əsasən sürücülər ara məsafəsini şəraitə uyğun olaraq özləri təyin etməlidirlər.

Müsahibimizə daha bir sualla müraciət etdik: – Yol-hərəkət qaydasının tələbləri pozularsa kimə müraciət edək?

– Bəzən elə düşünürük ki, DYP və yaxud xüsusi texniki kamera vasitələri yoxdursa, yol hərəkəti qaydalarını poza bilərik. Bu da ona gətirib çıxarır ki, biz qaydalara kiməsə və nəyəsə görə əməl edirik.

Artıq son zamanlar vətəndaşların müraciətləri üçün yeni "WhatsApp" nömrəsi (0605000902) aktiv edilib ki, qanun pozuntusu aşkarlanarsa, vətəndaş 24 saat əldə etdiyi faktı həmin sosial platformaya ünvanlaya bilər. Bunu yaratmaqda əsas məqsəd ictimai nəzarətin olmasını yol hərəkəti iştirakçılarına, xüsusən də sürücülərin diqqətinə çatdırmaqdır. Qeyd edək ki, həmin nömrəyə şikayət, təklif, işıqforun texniki nasazlığını və yaxud yolda baş verəcək bütün hadisələri çəkib ünvanlamaq mümkündür.

Ayaz İsmayılov "SAYM" sisteminin tələblərinə də aydınlıq gətirərək bildirdi ki, bu termin sürücü, avtomobil, yol, mühit sözlərinin baş hərfindən təşkil olunub ki, burada da əsas məsələ insan amildir. Sürücünün xətası, avtomobilin nasazlığı, yolların yararsız vəziyyətə düşməsi və mühit əsas amillərdəndir.

Öyrəndik ki, bu gün Naxçıvan şəhərinin bütün küçə və prospektlərində müşahidə kameraları quraşdırılıb ki, bununla da 24 saat həm sürücülərə, həm də piyadalara nəzarət etmək asanlaşıb. Naxçıvan şəhərində 21 yolayrıcında, Şərur şəhərində iki yolayrıcında, ümumilikdə, 23 yolayrıcında hərəkət işıqforla nizamlanır. 2 yerüstü piyada keçidi, 1 yerdə



isə yeraltı piyada keçidi fəaliyyət göstərir.

Qarşıdakı yeniliklərdən danışan müsahibimizin sözlərinə görə, gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə muxtar respublikanın ərazisi tranzit bir bölgəyə çevriləcək ki, Çindən ta ki Avropaya uzanan bu yolda yeni piyada keçidlərinin salınması, işıqforların sayının artırılması, yeni yol qovşaqlarının salınması və yaxud yolların hərəkət hissələrinin hərəkət zolaqlarının sayının artırılması zərurətə çevriləcək. Həmçinin qısa zaman kəsiyində muxtar respublikanın bütün yollarında, piyada keçidlərində məlumatverici bütün nişanlar yol kənarında dirəkdə və şaquli vəziyyətdə quraşdırılması işi başa çatacaq.

Ayaz İsmayılovdan 2023-cü ilin ilk 6 ayı ərzində muxtar respublika ərazisində baş vermiş yol-nəqliyyat hadisələrinin statistikası haqqında da məlumat aldıq. Öyrəndik ki, aparılan təbliğat işlərinə baxmayaraq, muxtar respublikada 6 ayda 45 yol-nəqliyyat hadisəsi baş verib ki, nəticədə, 18 nəfər həyatını itirib, 54 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 332 nəfər sürücülük vəsiqəsi olmadan, 592 nəfər etibarnamə olmadan, 131 sürücü sərxoş vəziyyətdə, 95 sürücü piyadaya yol vermədiyi üçün, 69 sürücü sərnişindaşıma qaydalarını pozduğuna görə, 638 sürücü kəmərsiz idarə etdiyinə görə, 741 sürücü işıqforun qırmızı işığında hərəkətini davam etdirdiyinə görə, 231 sürücü 1.1; 1.3; 1.11 nişanlanma xəttini pozub sola və yaxud geriyə döndüyünə görə "İnzibati Xətalar Məcəlləsi"nin müvafiq maddələrinə uyğun cərimələnərək haqlarında inzibati tədbirlər görülüb.

*Əziz oxucular, sonda bir daha tövsiyəmiz budur ki, Uca Tanrının bizə ən qiymətli bəxşişi olan ömür yolunu yarıda qoymamaq üçün mənzilbaşına çatmaqda tələsməyək. Yol hərəkəti qaydalarına əməl etmək özümüzün və başqalarının həyat yoluna rəvan davam etməsi üçün önəmlidir.*

**Fariz ƏHMƏDOV**

## Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi

### *yer təkindən istifadə ilə bağlı 14 sentyabr 2023-cü il tarixində saat $11^{00}$-da keçiriləcək hərracın elanı*

Hərrac auksion formasında keçiriləcəkdir.

***Culfa rayonu Əlincəçay çınqıl-qum qarışığı yatağı***

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti | Beh məbləği (10%) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Əlincəçay | LOT-1 | 345000 m3 | 6,9 ha | Çınqıl-Qum | 20 ilədək | X4318844.46<br>Y551849.82<br>X4318869.82<br>Y551961.15<br>X4319411.17<br>Y551859.01<br>X4319383.77<br>Y551725.98 | 34500 | 3450 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Nəsrəddin Tusi küçəsi 19. (Naxçıvan Biznes Mərkəzi MMC).

**Qeyd:** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10 faiz miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər. (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42)

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

*1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);*

*2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əslini;*

*3. "Vergiödəyicisinin vergi borcu barədə" arayış;*

*4. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);*

*5. İddiaçının tam adı, hüquqi statusu: Hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN – şəhadətnaməsi və dövlət reyestrindən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi;*

*6. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;*

*7. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 1 sentyabr 2023-cü il saat $16^{00}$ qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər 540 manat məbləğində xidmət haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri,Cəlil Məmmədquluzadə küçəsi 42

***(Əlaqələndirici şəxs: Əliyev Şövqi, telefon: (036) 545 34 85, 050-569-84-69 )*** ünvanından ala bilərlər.

Hesab:
AZ21NABZ12360100000000005944
VÖEN 0200003621

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi.

Büdcə təsnifat kodu: 142572

Büdcə səviyyəsinin kodu: 6

Xidməthaqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir. Beh məbləği ödənilmədiyi təqdirdə, iddiaçı hərraca buraxılmır.

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə.

Fiziki şəxs / Hüquqi şəxs tərəfindən ______
VÖEN:
Ünvan:

Xahiş edirik hərracda iştirak etmək üçün icazə verəsiniz.

### İtmişdir

Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşamış Nəcəfov Müslüm Mamoş oğlunun adına verilmiş JN-373$^{A}$ nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Şəhriyar kənd sakini İsmayılov Rəşadət Teymur oğlunun adına verilmiş JN-446 nömrəli Dövlət Aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Dəstə kəndində yaşamış mərhum Məmmədov Gülməmməd Lətif oğlunun adına olan "Torpağın mülkiyyətə verilməsinə dair JN-785 $^{B}$ nömrəli şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Rəsulov Çingiz Aslan oğlunun adına olan JN-242$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 465